HAQQIN SÖZÜ-SÖZÜN HAQQI.

# Yeni YOL

15 fevral 2016-cı il
№0017 (17)

yeni_yol@mail.ru | İCTİMAİ QƏZET | “იენი იოლი” საზოგადოებრივი გაზეთი | qəzet 17 iyun 2015-ci ildən nəşr olunur

## GÜRCÜSTAN, AZƏRBAYCAN VƏ TÜRKİYƏ DƏMİRYOLU İDARƏLƏRİNİN BAŞÇILARI TBİLİSİDƏ GÖRÜŞDÜ

Fevralın 12-də Azərbaycan, Gürcüstan və Türkiyənin dəmiryol idarələrinin rəhbərlərinin Tbilisidə növbəti görüşü baş tutub.

Bu barədə Gürcüstanın iqtisadiyyat və sabit inkişaf naziri Dimitri Kumsişvili məlumat verib.

Nazirin sözlərinə görə, görüşdə Bakı-Tbilisi-Qars dəmiryolunun tikintisi müzakirə olunub. Bu sahədə mövcud olan problemlər, onların həlli yolları, eləcə də layihənin statusu müzakirə mövzusuna çevrilib. Yol tikintisinin tezliklə başa çatdırılmasının vacibliyi vurğulanıb.

Görüşdə üç ölkə arasında dəmiryolu daşınmaları, eləcə də bu sahədə prespektivlər müzakirə edilib.



Tədbir çərçivəsində dəmiryolu idarələri başçılarının ikitərəfli görüşləri də baş tutub.

## GÜRCÜSTANLI GƏNCLƏRİN İSTANBUL SƏFƏRİ BAŞA ÇATDI

“Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı”nın təşkilatçılığı və Türkiyənin Əziz Mahmud Hüdayi Vəqfinin dəstəyi ilə bir qrup gənc Türkiyənin İstanbul şəhərinə səfər edib. “Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı”nın əməkdaşları Musa Hacıyev, Hacı Bəkiroğlu, Elsevər Əhmədov, II Kosalı İslam Mədrəsəsinin müəllimləri Natiq Əliyev, Ruslan Hacıxəlilov, Vasif Cəfərov, Zviad Koçalidze, Musa İbrahimov, GYMT-nin Tbilisidəki tələbə yurdunun məsul işçisi Roman Eminov, Salam Elm və Xidmət Vəqfinin sədri İrakli Artmeladze, Sadaxlı bölgəsində yerləşən Təzəkənd kəndinin imamı Hafiz Poluxov, Arıxlı kənd imamı Coşqun Tanrıverdiyev və Zaqatala İslam Universitetinin müəllimi Kamran Məmmədov Türkiyə səfərinin iştirakçısı olublar.

Səfər iştirakçıları İstanbulun tarixi məkanlarını ziyarət etmişlər. Onlar şəhərin Tekden və Acıbadem özəl kolleclərində təlim və tərbiyə prosesi ilə, bu təhsil müəssisələrində tətbiq olunan müasir standartlara cavab verən tədris



metodları ilə tanış olmuşlar.

Səfər çərçivəsində iştirakçılar müxtəlif seminar və konfranslara qatılmışlar. Bu seminar və konfranslarda gürcüstanlı qonaqlara müasir lider müəllimin necə yetişib formalaşması barədə ətraflı məlumat verilmiş, müxtəlif metodiki tövsiyyələr təqdim edilmişdir.

Gənclərin İstanbul səfəri 7-13 fevral tarixində gerçəkləşmişdir.

VİRUSA YOLUXMUŞ DÜNYANIN GÖRÜNTÜLƏRİ 2

PENSİYALAR BƏZƏN AİLƏNİN YAŞAYIŞ VASİTƏSİNƏ ÇEVİRİLİR 3

HƏRBİ RƏQABƏTİN ÜFÜQLƏRİ 4

YOLUNU TAPA BİLMƏYƏN YAXŞILIQLAR 5

YAS ADƏTLƏRİMİZDƏN GÖRÜNTÜLƏR 6

SƏYYADIN NƏVƏSİ SAYAT-NOVA 7

TBİLİSİ DÖVLƏT PEŞƏKAR AZƏRBAYCAN DRAM TEATRININ SƏHNƏSİNDƏ NÖVBƏTİ TAMAŞA OYNANILIB 8

## TEA SULİKİANİ AZƏRBAYCANLILARIN PROBLEMLƏRİNİN HƏLL OLUNACAĞINI VƏD ETDİ



Gürcüstan Ədliyyə Nazirliyinin başçısı Tea Sulikiani bildirib ki, əgər azərbaycanlıların sənədələrində ad və soyadlarının yazılışı ilə bağlı texniki səhvlər problem yaradırsa, bunlar aradan qaldırılacaq.

Nazir qeyd edib ki, bu problem təkcə azərbaycanlıların yaşadığı regionlarda deyil, bütün ölkədə mövcuddur. Sulikianinin sözlərinə görə, sovet sənədlərinin yenidən qanunilәşdirilməsi zamanı meydana çıxmış texniki səhvlərlə bağlı problem çoxdan mövcuddur və Saakaşvili dönəmində bu problem həll edilməyib. Düzgün olmayan yazılışa görə insanların mülkiyyət hüququ ilə bağlı problemləri meydana çıxır.

Tea Sulikiani azərbaycanlıların problemlərinin həll ediləcəyinə söz verib və onların Ədliyyə Nazirliyinə müraciət etmələrini məsləhət görüb.

## TÜRKİYƏ MÜDAFİƏ NAZİRLİYİNİN NÜMAYƏNDƏ HEYƏTİ GÜRCÜSTANA SƏFƏR EDİB

Türkiyə silahli qüvvələri ali idarəsənin bir qrup dinləyicisi Gürcüstan müdafiə nazirliyində olub.

Gürcüstan müdafiə nazirliyinin məlumatına görə, nümayəndə heyətinin tərkibinə yüksək vəzifəli türk zabitləri daxildir. Qonaqları müdafiə nazirinin müavini Anna Dolidze və baş qərargah rəisinin birinci müavini polkovnik Omar Beqoidze qəbul edib. Tanışlıq xarakterli görüşdə tərəflər iki ölkənin müdafiə idarələri arasında ikitərəfli əməkdaşlıq və gələcək prespektivlər məsələsini müzakirə ediblər.

Anna Dolidze iki ölkənin müdafiə sahəsindəki sıx əməkdaşlığının əhəmiyyəti barədə danışıb və ümidvar olduğunu bildirib ki, bu əməkdaşlıq gələcəkdə daha da dərinləşəcək.

“Türkiyə hərbi sahədə olduğu kimi, siyasi sahədə də bizim strateji tərəfdaşımızdır. Bizim sıx münasibətlərimiz var, birgə təlimlər keçiririk, təcrübə mübadiləsi aparırıq, təhsil sahəsində əməkdaşlıq edirik. Bu gün Türkiyənin hərbi sahədəki liderləri və ya gələcək liderləri bizim qonağımızdır” – nazir müavini bildirib.

Omar Beqoidze isə hərbi sahədə əməkdaşlıq və regional təhlükəsisizlik məsələlərinə diqqət yetirib.

“Bizim əməkdaşlığımız illərdir ki, inkişaf edir və təhsil, birgə təlimlər, texniki dəstək kimi müxtəlif sahələri əhatə edir. Biz həmçinin mövcud NATO-Gürcüstan paketi və regionda təhlükəsizlik barədə müzakirələr apardıq” – Beqoidze vurğulayıb.

Üçgünlük səfər çərçəvəsində türk nümayəndə heyəti “Krtsanisi” hərbi-təlim mərkəzinə D. Ağmaşenebeli adına Milli müdafiə akademiyasına baş çəkib.

## GÜRCÜSTAN FEVRALIN 15-DƏN İRANLA VİZASIZ REJİM TƏTBİQ EDİR

Gürcüstan tərəfindən 2013-cü ilin 1 iyulundan dayandırılmış İran İslam Respublikası ilə vizasız rejim 2016-cı ilin 15 fevralından tam şəkildə yenidən bərpa olunur.

Gürcüstan xarici işlər nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, bu, Gürcüstan xarici işlər nazirinin müavini David Calaqaniya ilə İranın Tbilisidəki səfiri Abbas Talebifarın görüşü zamanı məlum olub.

Gürcüstan tərəfi İran diplomatlarını Gürcüstan hökumətinin 2016-cı ilin 15 fevralından “Gürcüstan və İran İslam Respublikası arasında adi pasport sahibləri üçün vizaların ikitərəfli ləğv olunması haqqında” müqaviləni yeniləməsi barədə qərarını rəsmi şəkildə bildirib.

Bu qərar qüvvəyə mindikdən sonra İran vətəndaşları Gürcüstana sərbəst şəkildə gələ biləcək və Gürcüstan ərazisində 45 gün müddətində vizasız qala biləcəklər.



Afiq MUXTAROĞLU
amuxtaroglu@mail.ru

# VİRUSA YOLUXMUŞ DÜNYANIN GÖRÜNTÜLƏRİ

**Məmmədin sobasında yandırmağa odunu yoxdur, Osmanın təknəsində çörəyi. Deyək ki, Filankəsin bazarı yatıb, Filanın borc boğazını üzür, bu ayın kreditini necə, nə yolla ödəmək dərdindən gecə yata bilmir, gündüz rahatlıq tapmır. Beşmənkəsin də malı-atı acından ölür, yemi qışın ortasından qurtarıb, otaracağı da yoxdur, biçarə Allahın dilsiz-ağızsız heyvanlarını aparıb bir az hərləyə. O deyil ki, ot qəhətliyidir. Yox nə qədər istəsən alaf tapmaq mümkündür, di gəl ki, qiyməti göyün yeddi qatına çıxıb. Elə otlaq yerlərinin qiyməti də onun kimi. Heç özüm də bilmirəm, bütün bunların mətləbə nə dəxli var. Sözdü də, əti yox, sümüyü yox, ucundan tutub, ucuzluğa gedirəm.**

Qrip də məmləkəti başına alıb gedir. Ay özünüzü gözləyin quş qripi təhlükəsi var, ay donuz qripi neçə can alıb xəbərlərini eşitməkdən qulağımız da döyənək olub. Bu döyənək sözünün yerinə istədim bir "mozol" yazam, sonra fikrimdən daşındım ki, ey dili-qafil, nə yapdığındı, qorxmursanmı səni də rusofillərdən sayarlar. Elə bu üzdən də cümlədə döyənəkdən daha yaxşı yerinə oturan gül kimi "mozol"dan imtina etməli oldum. Döyənək nə qədər öz sözümüz olsa da, "mozol" qulağa daha yaxşı yatır. Nə isə qoy rədd olsun, "mozol"u da, döyənəyi də gör nə qədər məni məəttəl elədi. Qripdən danışırdım axı? İndi xəbər agentlikləri gecə demirlər, gündüz demirlər Zika virusu adlı bir bəladan danışırlar. Virusa yoluxanların sayının 1,5 milyonu keçməsi barədə fikirlər yayılmaqdadır. Bir azdan bu zəhrimara tutulanların sayının 4 milyona yüksələcəyi, yazda-yayda Avropada da özünü büruzə verəcəyi ehtimalları səsləndirilməkdədir. Bəlamız az imiş kimi, biri də bu yandan çıxdı. Burada deyirlər dərədə meymun az idi, biri də gəmiylə gəldi. Meymun demiş, bir ara meymundan keçən QİÇS virusu ilə başımızı-beynimizi tökmədilərmi? Sonar Ebola virusu deyilən xəstəlikdən danışıb, xalqı dəli-dəngəsər elədilər. Bir ara quş qripini dəbə mindirdilər.İndi biz başımıza haranın daşını salaq, bu dünyadan haraya geniyək. Və inandırım ki, bu məqamda mən məsləhət vermək kimi asan bir zadın da öhdəsindən gələ bilmirəm. Heç bir vəchlə bu bəladan necə qurtarmaq barədə məsləhət verməyi səmtləşdirə bilmədiyimdən, bu məqamda əlimin arxasını yerə qoyuram. Çarəni özünüz tapın, bu əcaib virus bizimkilərdən deyil. Bir onu bilirəm ki, aedas adlı bir ağcaqanaddan qaynaqlanır, yəni bizim kəndin-kəsəyin ağcaqanadlarından deyil, bir başqa bəladır.

Gürcüstanın da qazı olur. Kaxetdə qaz çıxacaq deyirlər. Özü də bunu yoldan ötənin biri yox, Amerika kimi əjdaha bir dövlətin ""Frontera Resources" adlı ciddi bir şirkəti söyləyir. Od olmasa tüstü çıxmaz deyiblər. Kaxetdə qaz çıxacaq deyirlərsə, deməli, çıxacaq. Nə qazıdır, mən bilmirəm.Elə Allah sənə şükür demək istəyirdik ki, energetika nazirimizin müavini Mariam Valişvili, dalınca da energetika nazirimiz Kaxa Kaladze yanan odun üstünə su töküb, bir ağızdan bəyan etdilər ki, bütün bunlar ağız sözüdür, inanmayın. Həmin şirkətin bundan əvvəl də buna bənzər açıqlamalar verdiyini və dediklərinin də təkzib edildiyini nəzərə alsaq, onda bu qaz adlı murazımızın da gözümüzdə qaldığını dilə gətirə bilərik. Düzü, mən elə ümidliydim ki, Kaxetdən əməlli-başlı bir qaz püskürcək, işimiz düzələcək. Gürcüstanın da qazla bağlı gözü özünə baxacaq və qazla ilgili bir neçə aydır gündəmi zəbt eləyən əndərəbadi söz-söhbət də son bulacaq. Neynəmək olar, qismətdə yox imiş, qismətdən artığını da heç kim yeməyib.

Beş-on gündür tanış-biliş məndən ABŞ-ın hərbi büdcəsinin nə qədər olmasını soruşur, mən də bir yolla onları başımdan eləyirəm. İndi mən desəm ki, Pentaqon yetkililəri 2016-2017-ci ilin hərbi büdcəsinin 582,7 milyard dollar olmasını təsdiqlədə biliblər, bilmirəm mənim tanış-bilişimin cibinə nə girəcək. Desəm ki, 582,7 milyard 3-4 milyon əhalisi olan bir dövlətin 100 illik dövlət büdcəsinə bərabər bir zaddır, yenə də heç nə dəyişməyəcək. Guya Amerika bizim ağlımızla oturub-duran kələkdir. Sem dayı, mən bilən, heç bildiyini babasına da verən deyil. Bu heyvərəlikdə hərbi büdcəni təsdiqləyəndə, ölkə əhalisinin başının altına yastıq qoymağı, dünyada Amerikanı sevməyən düşmənlərin olmasını əhalinin beyninə doldurmağı da unutmur. Hətta konkret ünvan verməkdən də çəkinmir və ABŞ-ın düşmənlərini vətəndaşlarına nişan da verir. Deyir, ay amerikalılar, sizin üçün Rusiya, Çin, Şimali Koreya, İran və "İslam dövləti" əsas təhlükə mənbəyidir, bunlar olmasa bizim bu 582 milyardlıq, hələ quyruğunu demirəm – zırıltı hərbi büdcə nəyimizə lazımdır və amerikalıların da ağlı kəsir, öz hökumətlərinin bu tədbirini gurultulu alqışlarla qarşılayıb, deyirlər, lap əcəb edirsən, əlinin də içindən gəlir, qarı düşmən dost olmaz, qisas qiyamətə qalmaz.

**Və beləcə, bu minvalla da Sem dayının işi düzəlir, bu dəfə də xalqı inandırdım, işin içindən bir hoqqa çıxmamış Pentaqonun da işini belə düzəltdim ədası ilə üzündə-gözündə çiçəklər açır.**

# AZƏRBAYCANDA "AZƏRBAYCANLILARIN VƏ GÜRCÜLƏRİN QARDAŞLIĞI GÜNÜ" QEYD OLUNUB

6 fevral "Azərbaycanlıların və gürcülərin qardaşlığı günü"dür. Bu il bayram altıncı dəfədir ki, qeyd olunur.

Layihə çərçivəsində 2017-ci ilin fevralın 6-da keçiriləcək növbəti bayramadək gürcü şairi Laşa Qaxariyanın xatirəsinin əbədiləşdirilməsi, Azərbaycan və gürcü rəssamlarının bədii sərgilərinin keçirilməsi planlaşdırılıb.

17 noyabr 2015-ci ildə Azərbaycandakı Gürcüstan Strukturları Liqasının rəhbəri Teymuraz Kirimov Abxaziyadan olan tələbə gənclərin tərbiyəsi işinə və peşəkar hazırlığına göstərdiyi kömək və dəstəyə görə, eləcə də şəxsi töhfəsinə görə Abxaziya Muxtar Respublikası Ali Sovetinin fəxri fərmanı ilə təltif edilmişdir. Bu xoş xəbər, Təşkilat komitəsinə 2016-cı ilin bayram tədbirlərini Abxaziya və Dağlıq Qarabağdan olan azərbaycanlı və gürcü gənclərin arasında keçirmək ideyasını vermişdir. Tədbirlər iki hissəyə bölünüb: 1-ci hissə Azərbaycanda, ikinci hissə Gürcüstanda keçirilib.

Azərbaycandakı Gürcüstan Strukturları Liqası 2005-ci ildə təsis olunub. Fəaliyyəti dövründə



Liqanın strukturları bir çox proqram və layihələr işləyib hazırlayıblar.

2011-ci ildə Azərbaycandakı Gürcüstan Strukturları Liqası bütün layihə və proqramlardan imtina edərək, öz güc və imkanlarını hər il fevralın 6-da azərbaycanlıların və gürcülərin qardaşlığı günü"nün keçirilməsinə yönəltməyi qərara alıb.

Bayramın bir il Azərbaycan şəhərlərindən birində, növbəti il isə Gürcüstan şəhərlərindən birində keçirilməsi razılaşdırılıb.

# GÜRCÜ JURNALI AZERI BUSINESS AWARD-IN MÜKAFATINA LAYİQ GÖRÜLDÜ




Business Time Georgia jurnalı regionun investisiya cəlbediciliyinin populyaşdırılması sahəsindəki xidmətlərinə görə mükafatlandırılıb.

Mükafatlandırma mərasimində çıxış edən Business Time Georgia-nın baş redaktoru Levan Çitanava bunları söyləyib: Mərasimin təşkilatçılarına bu nominasiya və mükafata görə təşəkkür etmək istəyirəm. Komandama xüsusi təşəkkür edirəm. Komandasız bu uğuru əldə etmək mümkün deyildi. Imkandan istifadə edərək, sizə müraciət etmək istəyirəm. Məlumdur ki, Gürcüstan 2014-cü ildə Aİ ilə azad ticarət haqqında razılaşma imzalayıb. Düşünürəm ki, bu razılaşma yalnız Gürcüstan üçün deyil, bütün region üçün yeni imkanlar yaradır, bizə Azərbaycan biznesmenləri ilə birlikdə Gürcüstan ərazisində rəqabətədavamlı məhsullar hazırlamaq və Avropa bazarına ixrac etmək üçün yaxşı imkanlar verilir. Əgər biz bu imkandan səmərəli istifadə edə bilsək, düşünürəm ki, birgə uğur qazana bilərik. Gürcüstanın strateji tərəfdaşı Azərbaycana iqtisadi sabitlik arzulayıram, belə ki, sizin uğurunuz bizim uğurumuzu şərtləndirir.

Qeyd etmək lazımdır ki, AZERI BUSINESS AWARD milli mükafatı milli biznesin inkişafında mövcud olan meylləri əks etdirir. Mükafat Azərbaycan bazarınında milli biznesin yeni modelini yaradan və daha çox fəal olanlara təqdim olunur.

# ENERGETİKA OMBUDSMANI PARLAMENTDƏ AZƏRBAYCANLILARIN PROBLEMLƏRİNİ QALDIRACAQ

Gürcüstanın energetika məsələləri üzrə ombudsmanı Salome Vardiaşvili azərbaycanlıların kompakt yaşadığı Marneuli rayonuna səfər edib.

APA-nın Gürcüstan bürosunun məlumatına görə, S. Vardiaşvili yerli əhali ilə görüşüb, vətəndaşların enerji, su və qaz təchizatı sahəsində mövcud olan problemləri ilə maraqlanıb.

Görüşdə iştirak edən soydaşlarımız bürokratik əngəllərlə rastlaşdıqlarını, buna görə də hələ də bir çox kəndlərə təbii qaz verilmədiyini bildiriblər. Həmçinin Marneuli su idarəsinin əhalini keyfiyyətli su ilə təmin etmədiyi vurğulanıb. S. Vardiaşviliyə Azərbaycan və Ermənistanla həmsərhəd bölgələrdə yerləşən kəndlərə elektrik enerjisinin verilməsində yaranan problemlərə dair suallar da ünvanlanıb.

Sualları cavablandıran ombudsman görüşdə qeyd olunan problemlərin həlli üçün müvafiq qurumlara sorğu göndəriləcəyini bildirib. Eyni zamanda qeyd edib ki, səslənən sualların əksəriyyəti Gürcüstan parlamentinə seçilən azərbaycanlı dep-




utatlara ünvanlanmalıdır. O gələcəkdə bölgədə keçiriləcək görüşlərə onları da dəvət edəcəyini deyib.

Salome Vardiaşvili azərbaycanlıların kompakt yaşadığı bölgənin problemlərini martda parlamentdə çıxışı zamanı səsləndirəcəyini də bildirib.

# GÜRCÜSTAN PARLAMENTİNDƏ YENİ FRAKSİYA MEYDANA ÇIXDI

Gürcüstanın parlament bürosu yeni, sayca 12-ci "Milli hərəkat vahid Gürcüstan uğrunda" fraksiyasını qeydə alıb. Yeni meydana çıxan fraksiya parlamentdə azlıq təşkil edən keçmiş iqtidar partiyasının üzvləri tərəfindən yaradılıb.

Yeni fraksiyanın tərkibi altı deputatdan ibarətdir. Fraksiyanın sədri Georgi Qviniaşvili, sədrin müavini Azər Süleymanov, katibi isə Şota Malaşxiyadır. Fraksiyaya həmçinin Rolad Axalaya, Nikoloz Kipşidze və Koba Nakopiya daxil olub.

İndiyədək Gürcüstanın parlament azlığı, yəni keçmiş hakim partiyanın üzvlərinin yaratdığı "Vahid Milli hərəkat", "Milli hərəkat – majoritarlar" və "Milli hərəkat – regionlar" kimi üç fraksiya ilə təmsil olunurdu.

# PENSİYALAR BƏZƏN AİLƏNİN YAŞAYIŞ VASİTƏSİNƏ ÇEVİRİLİR

**Hərdən qulağıma kiminsə "görən, pensiya nə vaxt olacaq" və ya "pensiyanı gətirmədilərmi" kimi sualları gəlib çatır. Və mən də fil qulağında yatmış kimi bir cavan kişinin və ya gənc bir gəlinin pensiya ilə, təqaüdlə nə ilgisinin olmasını çözmək istəyirəm. Öz-özümə, əfəndim, bu adamların pensiya yaşları deyil ki, niyə pensiya ilə maraqlanırlar kimi əcaib bir sual verirəm. Bu mənim naşılığıma, ən xırda həyati məsələlərdən baş çıxara bilməməyim anlamına gəlməməlidir. Nədən ki, mən durmun mahiyyətinin nədən ibarət olmasını əvvəl-əvvəl kəsdirə bilməmiş və o üzdən də bu məsələdə naşılıq sərgiləməli olmuşum.**

İşin əsli, məğzi isə tamam başqa zadda imiş. Pensiya ilə maraqlanan bu adamların dərdinin də başqa bir zad olmasının fərqinə vara bilməmişəm. Cavan qadının və ya kişinin pensiyaların nə vaxt gələcəyi ilə maraqlanması çox təbbi bir istəkdən doğurmuş. Deyək ki, atasının-anasının, nənəsinin-babasının pensiyasının ayın neçəsində gəlməsi bu adamlara hava və su kimi lazım imiş. Başqa bir yerdən gəliri, dolanışıq vasitəsi olmayan adamların pensiyanı gözləməkdən başqa bir çarəsi, çıxış yolu da yoxdur. Məcburiyyət qarşısında atanın-ananın pensiyasına göz dikməli olur, səbirsizliklə onun yolunu gözləyir. Qocaların pensiyasının da yüz dərdi, min azarı var. İşıq pulu verilməyib, qaz pulu yığan gedib, gəlməkdən qapını yağır eləyib, dükançıya veriləsi nə qədər borc yığılıb. Pensiya da bir düzəməlli yaraya məlhəm olan deyil, başını kəsəndə canı çıxır. Olsun, yenə də bir yırtığa yamaq ola bilər, bir ağlayanı kiridər. Evdə qoca ikidirsə, Allahın verib. O üzdən ki, üst-üstə iki pensiyaya yiyələnirsən. Düz 320 larini az vaxtda da olsa cibinə qoya bilirsən, sənin də cibin pul tanıyır. Evin qocası bir olanda isə qismətinlə barışıb 160 lariyə "bərəkət" deməli olursan.



İndi biz Amerikada yaşamırıq ki, qocalarımızın təqaüdü 1328 dollar ola. Amerikada istənilən şəxs 62 yaşı tamam olduqdan sonra və ya vaxtından əvvəl təqaüdə çıxa bilər. Lakin vaxtından əvvəl pensiyaya çıxanlar tam olmayan məbləğdə təqaüd alırlar. Amerikada pensiyaya çıxma yaşı 65-dir. Orta pensiya isə 1328 dollar təşkil edir. Amma nəzərə almaq lazımdır ki, 5-6 və 30-35 illik iş stajı olan pensiyaçıların aldığı təqaüd fərqlidir. Nə də Almaniya vətəndaşı deyilik ki, qocalarımızın da əli sevinəydi, özümüzün də. Almaniyada alınan pensiya ilə əməlli-başlı, kişi həyatı yaşaya bilərdin. Almaniyada pensiya təminatını ya özəl fondlar, ya da dövlət həyata keçirir. Qanuna əsasən, aylıq gəliri 3900 avrodan az olan şəxslər mütləq qaydada dövlət təminatı ilə pensiya alırlar. Gəlirləri bundan çox olan almanlar isə özəl fondlarla müqavilə bağlayır və pensiyaya çıxanadək hər ay banka müyyən məbləğ ödəyirlər. Hər ay yığılan vəsait illər sonra pensiyaçıya geri qaytarılır. Qeyd etəmk lazımdır ki, ölkədə pensiya yaşı kişilər üçün 67, qadınlar üçün isə 65-dir. Lakin hökumətə bu yaş həddinin 70 yaşa çatdırılması təklif olunur. Almaniyada orta aylıq pensiyanın miqdarı 1250 avro təşkil edir.

Lakin orasını da qeyd edək ki, bütün ölkələrdə vəziyyət bu cür könülaçan deyil. Elə qonşumuz, "mənəm-mənəm" deyib Suriyaya qoşun yeridən, qırx qazanın çalasısı Rusiyada kişilər 60, qadınlar isə 55 yaşda pensiyaya çıxsalar da, ölkədə orta aylıq pensiya 160 dollar təşkil edir. Elə sözarası deyək ki, bu məbləği, misal üçün, Almaniyada verilən pensiya ilə, lap elə qardaş Türkiyədə (Türkiyədə minimum pensiya 465 dollar, orta pensiya isə 680 dollardır) vətəndaşların aldığı təqaüdlə müqayisə etdikdə Rusiyada yaşayış səviyyəsinin nə dərəcədə olmasını müəyyənləşdirmək çətin olmaz. Və adam az qala üzünü Rusiyaya tutub "südünə görə mələsən" mesajını vermək istəyir.

**Ancaq elə düşünməyək ki, dünyanın bütün ölkələrində pensiya yaşına çatan ixtiyarlara o saat cib dolusu pul verirlər. Düzdür, bu gün ölkəmizdə pensiyalar ABŞ, Almaniya, Türkiyə kimi ölkələrlə müqayisədə az, bəlkə də cüzi görünə bilər. Lakin dünyanın bir çox ölkələrində bizdəki pensiyalarla müqayisə edilməyəcək dərəcədə az pensiyaların verilməsi də unudulmamalıdır. Sonda xəbəri olmayanlara bir xoş müjdə verək ki, 2016-cı ilin yayında ölkəmizin pensiyaçılarının alacağı məbləğ 20 lari artırılacaq.**

A. MUXTAROĞLU

# GÜRCÜSTANDA 13 DÜNYA BRENDİ OLAN MEHMANXANA TİKİLƏCƏK

Milli Turizm administrasiyasının başçısı Georgi Çoqovadzenin məlumatına görə, 2017-ci ilin sonunadək Gürcüstanda müasir standartlara cavab verən 13 mehmanxananın tikintisi başa çatdırılacaq. Onlardan yeddisi – Hilton Garden Inn, Park Inn by Radisson, Millenium Hotel, Rixos, Hyatt Regency, Moxy Mariott və Intercontinental Tbilisidə inşa olunacaq. Dörd mehmanxana – Crown Plaza, Babylon tower, Cube tower və Princess hotel kurort şəhəri Batumidə tikiləcək. Sinandalidə (Kaxeti bölgəsi) Radisson Blu Resort mehmanxanası, Kutaisidə Best Western mehmanxanası meydana çıxacaq.

2015-ci ildə Gürcüstan paytaxtında 11, Batumidə dörd, eləcə də Acaranın Çakvi qəsəbəsində bir, Samsxe-Cavaxeti bölgəsindəki Vardziya mağara kompleksinin yaxınlığında bir və Barjomi şəhərində bir mehmanxana istifadəyə verilib.

2015-ci ildə Gürcüstanda 1500 yerləşmə obyekti qeydiyyatdan keçib. Bu isə 51 mindən artıq yataq yeri deməkdir.

# RUSTAVİ METALLURGİYA ZAVODU İŞİNİ DAYANDIRDI

"Rustavi polad" ASC-nin rəhbərliyi məhsullarına tələbat olmadığından Rustavidəki metallurgiya zavodunda işləri dayandırıb.

Zavodun işçilərinin sözlərinə görə, müəssisənin müdiriyyəti bu günlərdə metallurgiya bazarında mövcud olan böhran səbəbindən zavodun işlərini ən azı bir ay dayandırmağa məcbur olduqlarını elan edib. Bu qərar öz ailələrini dolandıra bilməyəcəklərindən ehtiyatlanan işçilərin narazılığına səbəb olub.

"Rustavi polad" ASC ildə 200 min tonadək polad borular və armaturlar istehsal edir, məhsullarının 80%-ə yaxınını Azərbaycana, Ermənistana və digər ölkələrə ixrac edir. Rustavi metallurgiya zavodu Gürcüstanın bu il bazardakı durğunluq üzündən işlərini dayandıran ikinci iri müəssisəsidir.

Xatırladaq ki, bu ilin yanvarında Rustavi metallurgiya zavodundan əvvəl "Çiaturamarqans" kombinatı öz işlərini dayandırmışdır.

# GÜRCÜSTANDA TİBBİ NÜVƏ DEPARTAMENTİ FƏALİYYƏTƏ BAŞLAYACAQ

Kliniki-tibb elmi-tədqiqat institutunun bazasında yeni korpus tikilir. Burada tibbi nüvə departamenti yerləşəcək. Korpusun tikintisi artıq başlayıb. Fevralın 2-də əmək, səhiyyə və sosial müdafiə naziri David Sergeyenko tikintiyə baş çəkib.

Nazir cəmiyyət üçün lazımlı klinikanın investisiyasına görə menecmentə minnətdarlıq edib və layihənin həyata keçirilməsində ümumi səhiyyənin rolunu vurğulayıb.

Səhiyyə nazirliyinin məlumatına görə, tibbi-nüvə departamenti iki qamma kamera, pozitron-emisson tomoqrafiya (RET/ST), son nəsil şüa terapiyasının bir sürətləndiricisi və braxiterapiya aparatı ilə təmin ediləcək. Gürcüstanda bu gücdə texnikanın bir yerə toplanması ilk dəfə baş verir. Yeni tibbi-nüvə departamenti 2016-cı ilin yayından işə düşəcək. Onun köməyi ilə onkoloji xəstələrə Gürcüstanda beynəlxalq standartlara cavab verən xidmət göstəriləcək , bunun üçün onların xaricə getmələrinə ehtiyac qalmayacaq.

# MOLDOVA GÜRCÜSTANDAN DOLU ƏLEYHİNƏ RAKET QURĞULARI ALIR

Moldova Gürcüstanın "Delta" dövlət hərbi elmi-texniki mərkəzinin istehsal etdiyi 200-ədək dolu əleyhinə raket qurğuları almaq niyyətindədir. "Delta"dan verilən məlumata görə, Moldova kənd təsərrüfatı nazirliyi ilə bu barədə ilkin razılaşma əldə olunub.

Moldova ərazisinin yarısını əhatə edəcək qurğuların alınması barədə danışıqlar son mərhələdədir. Müqavilənin bağlanmasından sonra "Delta" raket sistemlərinin quraşdırılması üçün öz mütəxəssislərini Moldovaya göndərməyə hazırlaşır.

"Layihənin ümumi dəyəri 10 milyon dollara yaxındır. Texniki detallar dəqiqləşdirildikdən sonra bu rəqəm arta da bilər" – "Delta"nın məlumatında bildirilir.

# GÜRCÜSTANDA QAZ YATAĞI TAPILDI

Amerikanın Frontera Resources şirkəti Şərqi Gürcüstanda nəhəng qaz yatağının tapılmasını bəyan edib. Şirkətin məlumatına görə, kəşfiyyat aparılmış yatağın qaz ehtiyatı 3,8 trilyon kubmetr təşkil edir. Nəzərdə tutulur ki, Gürcüstan beş il ərzində digər ölkələrə, Türkiyə və Avropa İttifaqına qaz verməyə başlayacaq. Gürcüstan energetika nazirliyində şirkətdən bu qaz yatağı barədə rəsmi məlumat təqdim etməyi xahiş ediblər.

Energetika nazirinin müavini Mariam Valişvili bildirib ki: "Amerika şirkəti artıq üç ildir ki, belə bəyanat verir. Əvvəlcə söhbət 43 milyard kubmetrdən, sonra 1 trilyondan, indisə artıq 3,8 trilyon kubmetr qazdan gedir. Bununla əlaqədar biz rəsmi təsdiq gözləyirik".

# GÜRCÜSTANDA AVTOMOBİLLƏRİN SAYI DƏHŞƏTLİ DƏRƏCƏDƏ ARTIR



"Rezonanasi" qəzetinin məlumatına görə, Gürcüstanda avtomobillərin sayı fəlakətli şəkildə artır. 2015-ci ilin sonlarında ölkədə 1,1 milyon avtomobil qeydiyyatdan keçib. Mütəxəssislər bunu həyacanlı göstərici hesab edərək, hakimiyyəti düzgün nəqliyyat siyasiti həyata keçirməyə çağırırlar.

"Nəqliyyat və yol assosiasiyası"nın rəhbəri David Mesxişvilinin məlumatına görə, avtomobil parkının 60,9%-ni minik avtomobilləri təşkil edir. Bunun da böyük hissəsi – 90,9%-i 2004-cü ilə qədər buraxılmış avtomobillərdən ibarətdir. Əldə olunmuş məlumatlar avtomobil parkının 40%-inin Tbilisidə cəmləndiyini sübut edir.

# ODLU SİLAHLA BAĞLI QANUNVERİCİLİYƏ DÜZƏLİŞLƏR ETMƏK TƏKLİF OLUNUB

Gürcüstan DİN odlu silahlarla bağlı bir çox fəaliyyətlərə dair məsuliyyətin gücləndirilməsi məqsədilə qanunvericiliyə düzəlişlər paketi hazırlayıb. Silahın itirilməsi haqqında yalan məlumatın cinayət cəzası nəzərdə tutan dərəcəyə keçirilməsi təklif olunur.

Düzəlişlərə əsasən qanunsuz odlu silah (ov və idman silahlarından başqa) əldə etmək və saxlamağa görə 6 il azadlıqdan məhrum etmə cəzası veriləcək. Hazırda bu cəza 4 ildir. Qanunsuz odlu silah, döyüş sursatı, partlayıcı maddələr və ya partlayıcı qurğular gəzdirməyə görə, azadlıqdan məhrum etmə cəzası dəyişdirilərək, 4-6 ildən 5-7 ilə yüksəldilir.

"Düzəlişlər onunla şərtlənir ki, odlu silahlar cinayət törətmə nöqteyi-nəzərindən yüksək təhlükə mənbəyidir" – DİN-də aydınlaşdırıblar.

Dəyişikliklər parlamentin yaz sessiyasında müzakirə olunacaq.



Sahib MUSTAFA
sahib1975.sm@gmail.com

# HƏRBİ RƏQABƏTİN ÜFÜQLƏRİ

**Rusiya ilə Qərb dünyası arasında münasibətlərdəki gərginlik hər gün keçdikcə dərinləşməkdədir. Hadisələrin hal-hazırki siyasi ritorikası Rusiya üçün tunelin sonunda işıq əvəzinə zülmətin görünməsini deməyə əsas verir. Soyuq müharibənin birinci mərhələsində sürətlə silahlanma yarışında ABŞ-la bacara bilməyən SSRİ iqtisadiyyatının bağları bir-birindən qopmuş və sonuncunun bir dövlət kimi dünyanın siyasi xəritəsindən silinməsi ilə nəticələnmişdir. Hal-hazırda Ağ evin Kremlə qarşı yürütdüyü siyasətin əsas konfiqurasiyasını da məhz praktikada özünü doğrultmuş bu model təşkil etməkdədir. Arxada qoyduğumuz yaxın tarixi təcrübəni nəzərə alsaq, Rusiyanın gələcəyi ilə bağlı pessimist proqnozlar söyləmək heç də çətin deyil. Bunun üçün aşağıda bir neçə arqumenti təftiş etmək yerinə düşərdi.**

İlk növbədə qeyd edək ki, ABŞ 2017-ci ildə hərbi xərclərini artıracağı haqqında bəri başdan rəsmi məlumat açıqlamışdır. Belə ki, Ağ ev gələn il Pentaqona (ABŞ Müdafiyə Nazirliyi) 582 milyard dollar vəsait ayıracağını planlaşdırır. Nəzərdə tutulan bu məbləğ ABŞ ordusunun hərbi baxımdan dunyada total üstünlük qurması deməkdir. Həmçinin, Avropada da mövqeylərini möhkəmlətmək Vaşinqtonun hərbi doktrinasının tərkib hissəsinə daxildir.

ABŞ Müdafiə Naziri Eştonn Karter hərbi xərclərin artırılmasını Rusiya və Çinin hegomonluq əhval-ruhiyyəsinin yüksəlişinin qarşısını almaq, İŞİD-lə mübarizədə radikal addımlar atmaq, Vaşinqtonun Yaxın Şərq regionundakı strateji tərəfdaşlarını İran tərəfindən yarana biləcək təhlükədən qorumaqla əlaqələndirir.

Əgər müqayisə üçün Rusiyanın 2016-cı ildə ümumi dövlət büdcəsinin 210 milyard dollar təşkil edəcəyini və üstəlik Moskvanin hərbi sahəyə güc-bəla ilə cəmi 40 milyard dollar ayırmalı olacağını nəzərə alsaq, aradakı fərqin bir uçurum qədər dərin olması göz qabağındadır. Digər tərəfdən prezident Putin keçən ilin dekabrında 2016-cı il üçün dövlət büdcəsini təsdiq edərkən, rus hökuməti neftin 1 barrelinin illik orta qiymətini 50 dollar olaraq hesablamışdır. Lakin, həmin dövrdə London birjasında 1 barrel neftin qiyməti 38 dollar olmuşdur. ABŞ-ın "Bank of Amerika" bankı ekspertlərinin rəyinə görə əgər 1 barel neft 35 dollar olarsa, cari ildə Rusiyanın büdcə kəsrini 3% civarında saxlamaq ücün 1 dollar 94 rubl nisbətində olmalıdır. Hal-hazırda isə "qara qızılın" qiymətinin 27 dollar olması Rusiyanın fəlakətin astanasında dayanması deməkdir. Ekspertlərin hesablamalarına görə neftin dəyər itirmə tendensiyasının hələ bir müddət davam edəcəyini vurğulayırlar. Rusiyanın gələcəkdə aqibətinin necə olacağı özünü təkcə rəqəmlərlə ifadə etmir.

**Kremlin baş gicəllənməsi Rusiyanın düşdüyü Suriya labirintində də özünü göstərməkdədir. İqtisadi böhran və Qərbin tətbiq etdiyi embarqolar fonunda Rusiyanın bir neçə cəbhədə hərbi güc nümayiş etdirməsini dolayısı olaraq Vaşinqtonun planına uyğun şəkildə olması yanlış qiymətləndirilməməlidir. Əslində, Ağ evin "xeyir-duası" ilə dünyanın ayrı-ayrı guşələrində münaqişə ocaqlarının yaradılması və sonradan da Rusiyanı bu münaqişələrə qoşulmağa təhrik etmək Moskvanın əlavə qan itirməsi anlamlna gəlir. Belə ki, qaynar hərbi nöqtələrdə iştirak etmək milyonlarla maliyyə məsrəfi deməkdir. İqtisdi qüdrəti güclü olmayan ölkələrdə gəlirlərin kortəbii olaraq hərbi sahəyə yönləndirilməsi bu dövlətlərin iqtisadiyyatının tənəzzülünü yaxın prespektivdə sürətləndirir. Gətirdiyimiz dəlillər Rusiyanın hazırda düşdüyü durumu anlatmaq baxımından düşünürəm ki, yetərlidir. Nüvə silahı təhlükəsini də nəzərə alsaq, ABŞ və onun müttəfiqlərinin Rusiya ilə birbaşa yox, məhz hibrid müharibələr aparması ikinicinin diz çökdürül-**

# BƏƏ-NİN XOŞBƏXTLİK VƏ TOLERANTLIQ NAZİRLƏRİ OLACAQ

Birləşmiş Ərəb Əmirliklərinin baş naziri Məhəmməd bin-Rəşid əl-Məktum hökumətin tərkibində xoşbəxtlik naziri vəzifəsinin təsis edildiyini elan edib. Məhəmməd bin-Rəşid əl-Məktum hökumətin işinə "gənclik enerjisi" qatmaq niyyətindədir.

Şeyx Məhəmməd bəyan edib ki, yeni nazirin vəzifəsi "ictimai xoşbəxtliyin və məmnunluğun yaradılması" istiqamətində siyasət yeritmək olacaq. Hökumətin yenidən qurulması çərçivəsində daha bir yeni nazir postu yaradılacaq, nazirlər kabinetində tolerantlıq naziri işə başlayacaq.

Şeyx Məhəmməd özünün Twitter səhifəsində tolerantlığın "BƏƏ-nin əsas ictimai dəyəri" olduğunu yazıb.

Artıq məlum olub ki, dəyişiklik BƏƏ-nin prezidenti Şeyx Xəlifə bin Zaid əl-Nahayan tərəfindən bəyənilib.

Belə məlum olub ki, BƏƏ-nin yeni hökumətində nazirlərin sayı çox, nazirliklərin sayı az olacaq.

"Hökumət çevik olmalıdır. Bizə çox nazirlik gərək deyil. Lakin bizə islahatlar aparmağı bacaran nazirlər lazımdır" – şeyx fevralın 9-da Dubayda keçirilən hökumətlərin ümumdünya sammitində bəyan edib.



"Biz gənclərimizin arzularını həyata keçirən və xalqımızın səylərini gerçəkləşdirən gənc və çevik hökumət yaratmaq istəyirik" – o, bildirib.

Bununla əlaqədar baş nazir BƏƏ-nin Milli Gənclər Şurasının yaradılmasının anonsunu verib. Onun sözlərinə görə, seçilmiş gənc kişi və qadınlar hökumətin gənclik məsələləri üzrə müşavirləri kimi işləyəcəklər. ona 22 yaşdan böyük olmayan qadın nazir başçılıq edəcək. "Gəncliyin enerjisi gələcəkdə bizim hökumətimizə təkan verəcək" – baş nazir əlavə edib.

# PENTAQON ABŞ ÜÇÜN 5 TƏHLÜKƏNİN ADINI AÇIQLAYIB

ABŞ-ın müdafiə naziri Eşton Karter 2016-2017-ci maliyyə ilində Pentaqonun büdcə layihəsinin beş əsas təhlükə – Rusiya, Çin, Şimali Koreya, İran və "İslam dövləti" nəzərə alınmaqla hazırlandığını bildirib. Bu barədə Reuters agentliyi məlumat yayıb.

Karter bəyan edib: "Biz təcavüzkara sağalmaz ziyan vurmaq iqtidarına malik olmalıyıq ki, o, fitnəkarlıqdan əl çəksin və ya bu fitnəkarlıqlara görə təəssüf etsin".

Karterin sözlərinə görə, ABŞ Rusiya və Çinin fəaliyyətinə cavab olaraq yeni silahlanma xərclərini artırmaq niyyətindədir. Pentaqon rəhbəri Rusiyanın Ukraynaya "təcavüzünü" və ÇXR-nın Cənubi Cin dənizindəki mübahisəli adaya iddiasını xatırladıb.

Pentaqon 2016-2017-ci maliyyə ili üçün 582,7 milyard dollar istəyib. 2014-2015-ci maliyyə ilində ABŞ-ın hərbi büdcəsi 585 milyard dollar təşkil edirdi.

Yeni büdcənin ən iri xərclərindən biri elmi-texniki təkmilləşdirmələr üçün nəzərdə tutulur. Bu məqsədlər üçün Pentaqona 71,4 milyard dollar, 8,1 milyard dollar isə sualtı donanmanın gücləndirilməsi üçün lazımdır.

Yeni büdcədə "İslam dövləti" ilə mübarizə xərcləri 50% və ya 7,5 milyard dollar artırılıb.

3,4 milyard dollar Avropadakı ABŞ qoşunlarının saxlanması və müttəfiqləri dəstəkləmək üçün nəzərdə tutulub.

# RUSİYALILAR RUSİYANI AVROPADAN ASİYAYA KÖÇÜRDÜLƏR

Rusiyallıların əksəriyyəti Rusiyanı Avropa ölkəsi hesab etmirlər. "Levada-Çentr"in keçirdiyi rəy sorğusunun nəticələri belə deməyə əsas verir.

Rəyi soruşulanların 59%-i bu cür düşünürlər. Özünü hər halda Avropa ölkəsində yaşayan hesab edənlərin sayı isə 32%-dir.

Bununla belə ötən illər vəziyyət tamamilə başqa cür idi. Belə ki, 2009-cu ildə Rusiyanı Avropa ölkəsi hesab edən rusiyalıar 47%, 2008-ci ildə isə 56% təşkil edirdilər.

Məlumatı fevralın 4-də Qazeta.ru xəbər portalına istinadən Vestnik Kavkaza saytı yayıb.

# PEKİNDƏ SƏRNİŞİNLƏRİN ŞƏXSİYYƏTİNİ MÜƏYYƏNLƏŞDİRƏN TEXNOLOGİYA TƏTBİQ OLUNDU



Məlumat verilir ki, innovasiya sistemi vəsiqəni və şəxsin sifətinin təsvirini avtomatik olaraq çəkir, bundan sonra o, vağzal binasına daxil ola bilir.

Yenilik təhlükəsizlik xidməti əməkdaşlarının işini yüngülləşdirmək məqsədilə tətbiq olunub.

Nümunə tədbirlərinin "Çunyun" yeni il mövsümü dövründə fəaliyyət göstərəcəyi bildirilir. Vağzala daxil olmaq üçün sərnişinlərin xüsusi qurğuya yaxınlaşmaları və qarşılarında şəxsiyyət vəsiqələrini tutmaları gərəkdir. Sistem avtomatik olaraq vəsiqəni və şəxsin sifətini çəkdikdən sonra, o, vağzal binasına daxil ola biləcək.

Bir qədər əvvəl Çin nəqliyyat nazirliyi "Çunyun" mövsümündə ÇXR-nın nəqliyyat sisteminin 740 milyon sərnişin daşıyacağını bəyan etmişdir ki, bu da keçən ilin müvafiq göstəricilərindən 2,5% çox deməkdir.

Bu il "Çunyun" yanvarın 24-dən martın 3-dək davam edəcək. "Çunyun" bahar bayramının, ay təqvimi ilə Yeni ilin gəlişinə 14 gün qalmış başlayır. 2016-cı ildə bu, fevralın 8-i gecəsi baş verib. Çində rəsmi Yeni il bayramı fevralın 7-dən 13-dək davam edir.

# İSRAILIN SABİQ BAŞ NAZİRİ HƏBS OLUNDU

İki ayrı rüşvət hadisəsində adı hallanaraq hakim qarşısına çıxarılan İsrailin sabiq baş naziri Ehud Olmertin həbs müddəti 19 aya endirilib.

Rüşvət almaqda ittiham olunan sabiq baş nazir əvvəl 6 il müddətinə azadlıqdan məhrum edilmişdi. Vəkillərinin apelyasiya şikayəti əsasında sabiq baş nazirin həbs müddəti 19 aya endirilib.

Azadlıqdan məhrum edilən İsrailin sabiq baş naziri olan 68 yaşlı Olmert Qüdsdə qubernator olduğu vaxtda baş vermiş bir daşınmaz əmlak razılaşması səbəbiylə mühakimə olunur. O, İsrail tarixində ilk həbs olunan baş nazirdir.

Sabiq baş nazir Holylanddakı bahalı villaların olduğu bir ərazi üçün aldığı 500 min şekel (145 min dollar) və digər bir daşınmaz əmlak layihəsi üçün aldığı 60 min şekellik iki müxtəlif rüşvət hadisəsində günahlandırılır.

# SSRİ DÖVRÜNÜN QƏPİKLƏRİ İSTƏNİLƏN ADAMI MİLYONÇU EDƏ BİLƏR

Numizimatika təkcə həvəs deyil, həm də əlavə gəlir mənbəyi ola bilər. Yalnız dəqiq bilmək lazımdır ki, hansı sikkələr yüksək qiymətləndirilir.

Aşağıda təqdim olunan beşliyə SSRİ dövrünün ən qiymətli metal sikkələri daxil edilib. Kimə nənəsindən sovet mis pulları qalıbsa, onlar siyahını diqqətlə oxumalıdırlar.

1.1925 –ci ilin sikkələri.

1925-ci il metal pulları kifayət qədər az sayda buraxıldığına görə, demək olar ki, bu gün rast gəlinmir və baha olmasının səbəbi buna görədir. Məsələn, 2 qəpiklik mis pulu təxminən 65 min rubla satmaq mümkündür. Əgər həmin ildə buraxılmış yarımqəpiklik əldə etmək olarsa, onu 90 min rubla satmaq olar. Təəccüblü olsa da, 1925-ci ilin mis sikkələri, məsələn, 1922-ci ildə kəsilmiş gümüş rubldan yüksək qiymətləndirilir.



2. 1927-ci ilin sikkələri.

Alümin bürüncündən hazırlanmış 2 qəpikliklər xüsusilə qiymətlidir. Bir neçə il əvvəl belə sikkələrin dəyəri 5 min dollaradək artmışdı. Sonra işbazların fəallaşması ilə onların sayı artdığından, qiymət ucuzlaşdı. Bu gün 1927-ci ilin 2 qəpikliyi təqribən 50 min rubldur, 3 və 5 qəpikliklərin qiyməti isə 10 min rubldan artıq deyil.

3. 1931-ci ilin gümüş sikkələri.

10, 15 və 20 qəpik dəyərində olan sikkələri 1931-ci ildə 500 əyarlı gümüşdən hazırlayırdılar. Hazırda belə sikkələrin qiyməti 65 min rubldan başlayaraq 95 min rubla qədər yüksəlir. Düzdür, numizimatika bazarında saxta nikel qarışıqlı 1931-ci il mis sikkələrinin də az olmadığını unutmaq olmaz.

4. 1958-ci ilin sikkələri.

Bu ildə dövriyyəyə buraxılmış 1, 2, 5, 15, 50 qəpik dəyərində olan sikkələrin qiyməti 50 min rubldan başlayır. 3 qəpiklik və 2 rubulluqlar çox olduğundan, bazarda yüksək qiymətləndirilmir. Numizmatlar alümin bürüncündən hazırlanmış 5 qəpikliyi digərlərindən daha yüksək qiymətləndirirlər. Bu sikkələrin neçə nüsxə olması məlum deyil, amma qiyməti 70 min rubladək yüksələ bilir. 1958-ci ildə sikkələri müasir material sayılan nikel qatışığından kəsməyə başladılar ki, elə o vaxtdan da 5 qəpikliklər get-gedə sırf misdən kəsilmədi.

5. 1947-ci ilin sikkələri.

Dəyərindən asılı olmayaraq, 1947-ci ildə buraxılmış bütün sikkələr çox yüksək qiymətləndirilir. Numizimatika forumlarında kolleksiyaçılar onlara 50 min rubldan 100 min rubladək qiymət təklif edirlər. Yeri gəlmişkən, 1947-ci il sikkələrin xalis bürüncdən kəsildiyi sonuncu ildir. Mümkündür ki, sizin əlinizdə olan metal pul yaşıl ərplə örtülmüş ola bilər ki, bu da təbiidir. Belə ki, bürünc məmulatlar tez-tez bu cür təbəqə ilə örtülü olur.

Hazırladı: Elsevər ƏHMƏDOV

# ASTANA ANKARA İLƏ ƏMƏKDAŞLIQDAN İMTİNA ETMƏYƏCƏK

Astana heç vaxt Ankara ilə əməkdaşlıqdan imtina etməyəcək.

Bu sözləri Qazaxıstan prezidenti Nursultan Nazarbayev Türkiyənin baş naziri Əhməd Davutoğlunun Qazaxıstana səfəri çərçivəsində baş tutan görüş zamanı söyləyib.

Qazaxıstanın dövlət başçısı türk təmayülünün ölkənin siyasəti üçün əhəmiyyətli olduğunu vurğulayıb.

Qazaxıstan prezidenti bildirib ki, Qazaxıstan müstəqilliyinin ilk günlərindən qardaş xalqların yaxınlaşması üçün səy göstərir. Onun sözlərinə görə, türk rəhbərliyi ilə sıx əməkdaşlıq nəticəsində Qazaxıstan uzun illər ərzində itirilən əlaqələri bərpa etməyi bacarıb.

"Qazaxıstan üçün Türkiyənin dəyəri çox böyükdür. Biz Ankara ilə əməkdaşlıq siyasətindən heç vaxt imtina etməyəcəyik", - Nazarbayev qeyd edib.



O, həmçinin əlavə edib ki, Türkiyənin ətrafında artan geosiyasi gərginlik Qazaxıstana da təsir göstərir. Nazarbayev Türkiyə və Rusiya arasındakı münasibətlərdə yaranan böhranı "böyük problem" adlandırıb. "Hər iki ölkə bizim əhəmiyyətli müttəfiqimiz və tərəfdaşımızdır", - prezident vurğulayıb.

# 12 ÖLKƏ NƏHƏNG TİCARƏT RAZILAŞMASI İMZALADI

Yeni Zelandiyanın Oklend şəhərində 12 ölkənin ticarət nazirlərinin iştirakı ilə Transsakit okean əməkdaşlığına dair razılaşmanın rəsmi imzalanması baş tutub.

İmzalanma mərasimində Avstraliya, Bruney, Kanada, Çili, Yaponiya, Malayziya, Meksika, Peru, Sinqapur, ABŞ, Vyetnam və Yeni Zelandiyanın ticarət nazirləri iştirak ediblər. Bundan sonra razılaşma ayrılıqda hər bir ölkədə bəyənilməlidir. Gözlənilir ki, Transsakit okean əməkdaşlığına dair razılaşma iki ildən sonra qüvvəyə minəcək.

Sənədin imzalanması etirazlar fonunda keçib. Bir neçə yüz nəfər adam nazirlərin toplaşdığı binanın qarşısına toplaşaraq, 12 ölkə hakimiyyətinin qərarı ilə razılaşmadığını bildirib. Etirazçılar belə hesab edirlər ki, razılaşma əməkdaşlıqda iştirak edən ölkələrin iqtisadi müstəqilliyinə mənfi təsir göstərəcək.

Transsakit okean əməkdaşlığının yaradılması haqqında razılaşma 2015-ci ilin oktyabrında əldə olunub. Bu, 20 il üçün əldə olunmuş ən böyük ticarət razılaşmasıdır. Onun çərçivəsində Asiya-Sakit okean regionunda azad ticarət zonası yaradılacaq.

# MEDVEDEV: "YÜKSƏK NEFT GƏLİRLƏRİ ERASI GERİDƏ QALIB"

"Yüksək neft gəlirləri erası geridə qalıb". Bu sözləri Rusiyanın baş naziri Dmitri Medvedev "Vahid Rusiya" partiyasının XV qurultayının açılışında çıxış edərkən söyləyib. Bu barədə "RİA Novosti" agentliyi məlumat yayıb.

"Xahiş edirəm, insanlara yerinə yetirə bilməyəcəyiniz vədlər verməyin. Biz, xüsusən büdcə gəlirlərinin aşağı olduğu bir vaxtda məsuliyyət daşıyan siyasi qüvvəyik. Yüksək neft gəlirləri dövrü artıq başa çatıb. Biz hamımız, xüsusən baş nazir olaraq mən, büdcəmizin vəziyyətinin nə yerdə olduğunu daha yaxşı bilirik", - deyə o, söyləyib.

Bununla belə, Rusiyanın baş naziri Dmitri Medvedev ölkənin və insanların inkişafı ilə bağlı heç bir layihəyə qənaət edilməyəcəyini də diqqətə çatdırıb.

Afayət AFİQ



# *YOLUNU TAPA BİLMƏYƏN YAXŞILIQLAR*

**Xalqı tarixə, xalqlar cərgəsinə yazan onun tarixi və mədəniyyətidir. Yəqin hamı bir ağızla razılaşacaq ki, mədəniyyəti olmayan xalqın düz-əməlli tarixinin olmasından bəhs etmək də gülüncdür. Hər nə qədər gözəl geyimli, gözəl görkəmli ağızı yaxşı söz istehsal edən insanlarımız yerindən duranda zəngin mədəniyyətimiz belə, uzun tariximiz elə deyib bülbül kimi şaqqıldasa da, bunun belə olmadığını hamımız əla qavrayırıq. Yox, haşa, mən olanları yox saymaq, ya da aşağılamaq fikrindən olduqca uzaqlardayam. Məni narahat edən, birincisi, sözlərinə bu cümlələrlə başlayanların bu mədəniyyət zəhrimardan heç bir zad anlamamaları və ən əsası veclərinə almamalarıdır. Bunun bariz nümunəsi bu gün 3- 5 aktyorun başına uçmağa hazırlaşan teatrımızdır. İllərdir bu barədə çox danışılıb, çox məsələ qaldırılmasına baxmayaraq, vəziyyətlə bağlı bir arpa boyu yol qət edilmiş deyil. Çünki bəhsi keçən məsələ hər zaman ikinci plandadır. Əminəm ki, teatrdan pul qoxusu gəlsə, istənilən öndə gedənimiz, istənilən vəzifəlimiz dəridən-qabıqdan çıxıb işi yoluna qoyar, bəzənibdüzənib, ən gözəl qalstukunu bağlayıb gələrdi açılışına...**

İndi mənim mədəniyyətin teatr yönündən başlamağıma baxmayın, hər yerdə vəziyyət eynidir. Yox. Hər yerdə vəziyyət faciəvidir yazsam, daha düzgün cümlə alınmış olardı.

Ötən həftə Heydər Əliyev adına Tbilisi Dövlət Peşəkar Azərbaycan Dram Teatrında olduq. Yəqin çoxları bilir, bilməyənlər üçün isə bircə cümləlik məlumat kimi deyə bilərəm ki, sözü gedən teatrın binası tarixinə, adına, dəyərinə yaraşmayacaq qədər pis, acınacaqlı durumdadır. Tiflisin göbəyinin ən yaralı nöqtəsi buradır desəm, elə də böyük şişirtməyə-filana yol vermiş olmaram.

Diqqət, qayğı bir yana qalsın, teatra maraq o qədər azdır ki, inkişaf hərtərəfli dayanır. Az əvvəl də dediyim kimi, bir çox sahələrimizdə durum belədir. Bir iki nüans yazacam, onda vəziyyətin rəsmi sizlər üçün nisbətən aydınlanmış olacaq.

Elə ən son tamaşanı izlədikdən sonra beynimə taxıldı bunlar. Bir insan bir tamaşanın həm rejissoru, həm aktyoru, həm rəssamı, həm musiqi tərtibatçısıdır. Hələ unutduğum şeylər də var. Bu o adamın supermen-filan olduğuna dəlalət etmir. Əsla. O bütün sadalananların öhdəsindən məharətlə gəldi, inkar etmirəm. O şəraitlərə görə mükəmməl bir ifa nümayiş etdirildi. Ancaq, o adam bir dəm qabaq qeyd etdiyim kimi, təbiətüstü qüvvələrə malik olduğundan və ya kefindən bunu etmir axı. Heç kim olmadığından, iki çiynini hər şeyin altına verməli olduğundan, başqa çarəsi olmadığından edir.

**Hiss edirəm, yenə düşünənlər var, deyənlər var ki, yenə başladı boş-boş danışmağa. Yox, boş deyil. Dərd bir olsa nə var idi ki. Teatr elə beynimə yaxın olduğu üçün önə çıxardığım məsələdir. Birdən elə bilərsiniz, gəminin su basan tərəfi elə buradır, yox, məlumunuz olsun ki, gəmi çox yerindən dəlik-deşik olub. Nümunə gətirdiyim rejissorla qəzet redaktorlarımız da eyni aqibətin yiyəsidirlər, elə başqaları da. Qocaların bir sözü var, deyirlər ki, hamısı pulun bəlasıdır. Şəkki-şübhəsiz hamısı pulun bəlasıdır. Pulu belə işlərə qıymamağın bəlasıdır. Allah üçün qeyd edək ki, bu dəqiqə kimisi səmimi qəlblə, kimisə də sırf ad qazanmaq üçün xeyli sayda imkanlı və insanlara kömək etməyə hazır adamlar, qurumlar var. Bu dəqiqə dillənsən hara üçün istəyirsən nəsə taparlar. Paylayarlar. Bölüşdürərlər. Savab iş görərlər. Özünüz çox yaxşı bilirsiniz ki, bu gəlhagəllər hansı ərəfədə daha geniş vüsət alır. Alsın, bir şey demirəm. Burada pis bir şey də görmürəm, ancaq və lakin bilməliyik, daha doğrusu bilirik. Özümüzü unutmuşluğa vurmamalıyıq ki, hər şey qara boğazdan ibarət deyil, qarın doyurmaqla məhdudlaşmır. İnkişaf etmək üçün başqa yönlərə də kəndimin dili ilə desəm görüm-baxım etmək lazımdır. Təhsilə, mədəniyyətə, maariflənməyə və s... Lazımdır. Əksini heç kəs iddia edə bilməz...**



Hacı Bəkiroğlu
hacibakir@mail.ru

## YAS ADƏTLƏRİMİZDƏN GÖRÜNTÜLƏR

**Mədəniyyət, cəmiyyətləri şəkilləndirən əhəmiyyətli faktorlardan biridir. Hər mədəniyyət illər keçdikcə əldə etdiyi təcrübəsiylə öz ənənələrini yaradır. İlk insanın yaranmasından üzü bu yana doğum, evlənmə və ölüm kimi dönüş nöqtələri bir çox ayinin və inanc təliminin nüvəsini meydana gətirdiyi bilinir. İnsan həyatındakı ən əhəmiyyətli keçid mərasimlərindən biri də cənazələrdir. Lakin bəzən bu ənənələr başqa bir mədəniyyətə o qədər qəribə və yad gəlir ki, eşitdiyində çaşıb qalırsan.**

Ancaq ölümün insan həyatı üçün son deyil, bir keçid mərhələsi olduğunu yuxarıda da qeyd etdik. İnsan qəbir aləminə girdikdə axirət həyatına qədəm basır. Fani həyatdan gerçək həyata addım atır.

Bu yaxınlarda xəbərlər və sosial paylaşımlar kanalları Türkiyədə yas mərasimlərindəki yemək məsələsi, əsasən də bu mərasimlərdə pidə verilməsi məşğul etdi. Xəbərlərdə yas yerində pidə verilməsinin haram olduğu fətvası deyilirdi. Bu məsələ məni çox düşündürdü. Deyəcəksiniz burda nə var ki, belə düşünəcək. Onu düşünürəm ki, bu fətvanı verənlər bizim buralardakı yas mərasimlərini görsələr görəsən nə deyərlər?

Bu gün bölgəmizdəki yas mərasimlərinin toy mərasimlərindən elə bir fərqi yoxdur. Toyda qoyulan şərabdan başqa. Bunu oxuyanlar məni qınamasınlar ki, bu nə ifadədir. Düşünsəniz mənə haqq verərsiniz. Bu gün yas mərasimlərimizdə cənazə sahibi ölüsünü yaddan çıxarıb ancaq qonaqlarını yola salmaq təlaşına düşür. Bizlərsə ona dəstək olmaq əvəzinə, onun bizə qulluq etməsi üçün yanında oluruq. Halbuki, Cəfəri Təyyar şəhid olanda həzrət peyğəmbər "Cəfərin ailəsinə yemək hazırlayıb aparın. Çünki başlarına özlərini məşğul edəcək bir müsibət gəlmişdir."(Ebu Davud, Cenaiz, 25-26) buyurur. Buradan da görülür ki, cənazə evində yemək bişməz. Böyüklərimizin söylədiklərinə görə də keçmişdə yas evində yemək bişməz, qonşular hazırlayıb gətirərdilər. Ancaq bu gün bizlər süfrəmizdən tort, limonlu çay, turşu, konfet əskik etmirik. Sanki cənazə sahibinə başsağlığına deyil yeyib –içmə dəvətinə gedirik. Hələ buda yetmirmiş kimi bir arxasınca da söz edirik ki, əti yaxşı bişməmişdi, konfeti ucuzunda idi...

Yeməkdən öncə isə imam önə keçib, ey camaat, cənazə namazına durun ifadəsini işlətməyə az qalır ki, peşiman olsun. Çünki imamın özündən başqa bir-iki nəfər dura-durmaya namaza. Ancaq süfrəyə keçəndə özümüzə söhbət ortağı gəzirik.

Yas adətlərimizin başqa bir yönü olan məzar daşlarından danışmaq isə mənə daha çox acı verir. Əslində baş daşları sadəcə o məzarda yatanın kim olduğunu göstərən bir bəlgə olmalıdır. Ancaq biz baş daşını bir şəkil albomuna çeviririk.

Üstündə elə sözlər həkk edirik ki, gəl görəsən. Və məzarı ziyarət edəndə daşı qucaqlamaq, öpmək, ondan kömək istəmək, şirk qoşmaq da ən öndə gələn xüsusiyyətlərimizdəndir.

Bunun üçündür ki, İslamın ilk illərində həzrəti peyğəmbər qəbir ziyarətini qadağan etdi. İnsanlar tam iman sahibi olduqdan sonra yenidən icazə verildi ki, qəbirlər ziyarət olunsun. Ancaq bu zaman da bir şərt qoyuldu. Bu şərt ondan ibarət idi ki, qəbirlər ölümü xatırlamaq və ibrət almaq üçün ziyarət ediləcək.

**İslam dininə görə yas 3 gündür. 3, 7, 40, 52 və il dönümü mərasimləri islamda olmayan bidət əməllərdir. Islamda sadəcə ehsan vermək vardır ki, bunun da vaxtı və zamanı yoxdur. Nə zaman imkanın olsa, maddi vəziyyətin nəyə çatırsa o dərəcədə ehsan verərsən. Şərt o deyil ki, mal kəsib bir neçə adamı yığıb süfrə açasan. Əsas olan o malı kəsib ehtiyacı olana, yetimlərə və kasıblara paylamandır. Bu əsl ehsandır.**

# MÜSƏLMANLAR BATUMİDƏ DAHA BİR MƏSCİDİN TİKİLMƏSİNİ XAHİŞ EDİRLƏR

Müsəlmanlar onlara məscid tikmək üçün torpaq ayrılmasını tələb edirlər və bu məqsədlə imza toplayırlar. Onlar bəyan edirlər ki, fəaliyyətdə olan məscidə arzu edənlərin hamısı yerləşmir, bununla bağlı daha bir məscid tikilməlidir.

"Batuminin bu gün yeni bir məscidə ehtiyacı var. Bu, bugünün tələbi deyil, on illərdir adamlar, xüsusilə də cümə və bayram günlərində küçədə ibadət edirlər və dindarlar Batumidə daha bir məscidin tikilməsini tələb edirlər. Bu, bugün başlamayıb, bir neçə on ildir Batuminin məscidə ehtiyacı var. Belə ki, Batumidəki yeganə məscidə fiziki olaraq adamlar yerləşmirlər. Yağışlı, küləkli, pis havalarda demək olar ki, biz ibadət edə bilmirik. Bu komfort üçün deyil, fəaliyyət göstərən məscidin yükünü azaltmaq üçün zərurətdir. Ümid edirik ki, hakimiyyət müsəlmanların tələblərini nəzərə alacaq" – "Gürcüstan müsəlmanlar ittifaqının" sədri Tariel Nakaidze bəyan edib.

# GÜRCÜSTANDA DİNİ AZLIQLARIN MALİYYƏLƏŞDİRİLMƏSİ ARTIB

Dini məsələlər üzrə Dövlət Agentliyinin sədri Zaza Vaşakmadze agentliyin 2015-ci ildə həyata keçirdiyi işlərin yekunundan bəhs edib.

Onun sözlərinə görə, agentliyin işi, o cümlədən də hakimiyyət dairələri ilə münasibət nöqteyi-nəzərindən uğurlu olub.

"Mən aşağıdakı sahələrə diqqət yetirərdim: Gürcüstanda mövcud olan bütün dinlərin nümayəndələri ilə dialoq yaradılıb, formalaşdırılıb. Həmçinin 2015-ci ildə dini azlıqlara verilən məbləğ ikiqat arırılaraq, 3,5 milyona çatdırılıb, cari ildə isə bu məbləğ dinlərin xeyrinə 4,5 milyona yüksəldilib. Bir və ya iki din isə 2017-ci ilin maliyyə layihəsinə əlavə ediləcək. Eyni zamanda 80 məscid və 12 sinaqoq dindarlara verilib, Yevangeliya kilsəsi açılıb. Demək olar ki, bütün dini təşkilatların əmlak məsələlərinin tənzimlənməsi həyata keçirilir.



Hakimiyyət dairələri ilə münasibətlər də uğurlu alınır. Biz Gürcüstanın yarısını əhatə etmişik, cari ildə bunu başa çataracağıq.

Gürcüstanda 180-ə yaxın ictimai qulluqçu treninq keçəcək, dövlət çinovniklərinin stolüstü kitabına çeviriləcək kitablar nəşr olunacaq" – Vaşakmadze bəyan edib.

# ROMA PAPASININ GÜRCÜSTANA SƏFƏRİ SENTYABRA PLANLAŞDIRILIR

Roma papası Cənubi Qafqaz ölkələrinə səfəri çərçivəsində Gürcüstanda da olacaq. Tbilisidən başqa o, Bakıya və Yerevana da səfər edəcək.

Gürcüstanın dini məsələlərlə iş üzrə dövlət agentliyinin başçısı Zaza Vaşakmadzenin məlumatına görə, Roma papası Fransisk sentyabrın əvvəlində Gürcüstana gələcək.

Gürcüstana səfər Cənubi Qafqaz üzrə səyahət çərçivəsində baş tutacaq. Zaza Vaşakmadzenin bu məsələni Cənubi Qqafqazdakı Roma katolik kilsəsinin yepsikopu Cüzeppe Pazatto ilə müzakirə etdiyi də məlum olub.

Gürcüstan patriarxlığına nəzərdə tutulan səfər artıq Vatikanda səfir Tamar Qrdzelidze ilə müzakirə edilib.

# OMBUDSMEN TÖVSİYYƏLƏRİNƏ CAVAB VERMƏYƏN NAZİRLƏRİN ADINI AÇIQLADI



Gürcüstanın xalq müdafiəçisi aparatı 2015-ci ildə nazirliklərə və idarələrə 80 tövsiyyə və təklif unvanlayıb ki, onların da yarısı tamamilə yerinə yetirilib. Ən çox müraciət Baş prokurorluğa ünvanlanıb.

Gürcüstanın xalq müdafiəçisi Uça Nanuaşvili özünün illik hesabatında onun tövsiyyələrini yerinə yetirməyən nazirlik və idarələrin adını açıqlayıb.

Onların arasında Gürcüstan hökuməti, ədliyyə nazirliyi və Ali məhkəmə də var. Ombudsmenin hesabatında probasiya və cəzaçəkmə, mədəniyyət və abidələrin mühafizəsi, iqtisadiyyat və sabit inkişaf nazirliklərindən, eləcə də Gürcüstanın yüksək ədliyyə şurasının katibindən tövsiyyələrinə cavab almadığını bildirib.

Bütövlükdə keçən il 80 tövsiyyə və təklif göndərilib, onlardan 40-ı və ya 50%-i yerinə yetirilib, 14-ü və ya 17%-i qismən yerinə yetirilib, 26-sına və ya 33%-inə cavab gəlməyib.

"2015-ci ildə Gürcüstanın xalq müdafiəçisinin tövsiyyə və təklifləri azalıb. Qeyd etmək lazımdır ki, müxtəlif idarələr Xalq müdafiəçisinin müraciətlərinə adekvat reaksiya veriblər" – hesabatda bildirilib.

# İTALİYADA 30 MİLYON AVRO MƏNİMSƏYƏN KEŞİŞ HƏBS OLUNDU

Maliyyə cinayətləri ilə mübarizə aparan İtaliya maliyyə nazirliyinin maliyyə qvardiyası fevralın 10-da Genuya şəhərində irimiqyaslı fırıldaqçılıqda təqsirləndirilən keşişi saxlayıb.

64 yaşlı argentinalı prelat Patrisio Benvenuti əsasən yaşlı və xaricdə yaşayan 300-dən artıq adamı aldadaraq, 30 milyon avroya yaxın məbləği mənimsəyib. Yayılan məlumata görə, o, köçürmələri və ianələri öz xeyriyyə fondu üçün qəbul edib. İtaliya müstəntiqlərinin araşdırmasına görə, Benvenuti əslində İtaliyada və xarici ölkələrdə qeydiyyatdan keçirilmiş saxta şirkətlər vasitəsilə bu pulların mənimsənilməsi ilə məşğul imiş.

Maliyyə qvardiyası fondun əmlakına, o cümlədən də XV əsrə aid, dəyəri 8 milyon avro olan villaya həbs qoyub.

# SƏYYADIN NƏVƏSİ SAYAT-NOVA

***Keçən il İrəvanda Sayat-Novanın üç dildə erməni, gürcü, rus dillərində şeirlər toplusu nəşr olunmuşdur. "Ermənistanın inkişafı təşəbbüsləri" fondu, Surb Georq kilsəsinin yenidənqurma fondu Sayat-Novanın Eğişe Çarens adına Ermənistan Ədəbiyyat və İncəsənət Muzeyinin təqdim etdiyi əlyazmalarının, onun "Dəftər"inin üzü əsasında üç dildə kitab nəşr etdirmişdir. Bəri başdan qeyd edim ki, Sayat-Nova qoşqularını üç dialdə: Azərbaycan, gürcü və erməni dillərində yazmışdır. Bu kitabda Azərbaycan dilində olan şeirlərin yerinə ruscaya tərcümə olunan qoşquları verilmişdir.***

Kitabda gürcücə 17, ermənicə 24, rus dilinə tərcümə olunan 20 şeir özünə yer almışdır. Şeirləri rus dilinə V. Bryusov, K. Linskerov, S. Qaysaryan, M. Lozinski, S. Şervinski, E. Nikolayevski, V. Potapova tərcümə etmişlər. Məlumdur ki, Azərbaycan dilində yazmağı və danışmağı bacaran Sayat Nova hələ 18-20 yaşlarında ikən yalnız bu dildə, bir neçə ildən sonra gürcücə, 30 yaşına çatdıqdan sonra isə ana dili olan ermənicə yazmağa başlamışdır. Belə ki, onun bizə qədər gəlib çatan qoşqularının əksəriyyəti, yəni 115-i Azərbaycan, 60-ı erməni, 37-si isə gürcü dilindədir. Ön söz filologiya elmləri doktoru Henrix Baxçiniyana məxsusdur. O qədər də böyük olmayan bu ön sözündə o, tarixi faktlara deyil, uydurma və əfsanə, eləcə də yayılan fikirlərə istinad edib. Məsələn: «Belə bir versiya mövcuddur ki, ona da uyğun olaraq gənc Arutini əsir götürürlər və çalğıçı-xanəndə olaraq İran qoşununun musiqi dəstəsinə qatırlar. 1737-1739-cu illərdə Nadir şah tərəfindən Hindistana hücum zamanı gürcü çarının oğlu İrakli də (sonralar çar II İrakli) iştirak edir. Bu sonuncu əsir götürülmüş gənc ermənini satın alır və özü ilə Gürcüstana gətirərək gürcü çar sarayının musiqiçisi təyin edir, sonra isə çar sarayının şairi olub». Henrix Baxçiniyan fərziyyənin kimin tərəfindən söylənildiyini qeyd etmir. Əslinə qalsa, bu fərziyyəni ilk dəfə olaraq Sayat-Novaşünas alim Moris Həsrətyan səsləndirib. Nadir şahın Hindistana hücumu zamanı gənc gürcü şahzadəsi Kaxanın (II İrakli) onun ordusunda olduğu zaman Moris Həsrətyan, İraklini müşayiət edən nökərlər içərisində Arutinin də olduğunu, 1744-cü ildə İrakli Gürcüstana qayıdıb çarlığa başlarkən, Sayat-Novanın da həmin ildən saray sazəndələrinin başçısı təyin edildiyini fərziyyə edir. Belə ki, bu fərziyyənin elə bir əsası yoxdur. Geronti Kikodze özünün "II İrakli" adlı tarixi monoqrafiyasında yazır: "Teymurazın özünün olduğu kimi, şahzadə İraklinin də İranda tavad (əsilzadən - M. M) uşaqlarından başqa onun yanında bir neçə Kartl-Kaxetili kəndlilər də olub. Xarakterikdir ki, onun əmələsində dörd nəfər sədaqətli tatar da olub (azərbaycanlı - M. M.). Biri (üzəngiçi) mehtər, biri çapar və yaxud şatır (çevik, qulluğa hazır olan), biri ev xidmətçisi, biri də tərcüməçi. (Geronti Kikodze, II İrakli, Tbilisi, Nakaduli, 1983. səh. 35). Göründüyü kimi, burada Sayat-Novanın olduğu qeyd edilmir. Sonra Henrix Baxçiniyan 1742-ci ildən Arutinin, Sayat-Nova ( Sayatın nəvəsi ) adı ilə gürcü çarının sarayında yaradıcılıq fəaliyyətinə başladığını, burada çar Teymurazın ikinci qızı (İraklinin bacısı) şahzadə Annaya qarşı böyük və taleyüklü sevgi hisslərinin baş qaldırdığını, böyük ozanın və şairin üç dildə yazdığı ölməz aşiqanə poeziyasının bu məhəbbətin təzahürü olduğunu, halbuki, sevgililər arasında aşılmaz silk maniəsinin mövcudluğuna görə, bu məhəbbətin faciəli olduğunu və şübhəsiz, bunun da xoşbəxt sonluğunun istisna edildiyini, saraydan iki dəfə: 1752-ci ildə, ikinci dəfə 1758-1759-cu illərdə qovulduğunu yazır. Sayat-Novanın ermənicə olan şeirlərini gürcü dilinə tərcümə edən, üç millətin məhəbbətinin qazanılmasının çox nadir hal olduğunu qeyd edən yazıçı Givi Şahnazarinin dediyinə görə, «Sayat-Nova faciəli şəxsiyyət olub. II İrakli onu çox sevirdi. Buna görə də sarayda intriqalar baş qaldırdı və Sayat-Nova fakitki olaraq Ermənistanda Axpat monastrında rahibə çevrilməyə məcbur olub". Qeyd etmək lazımdır ki, həmin vaxtlar Lori nahiyəsində olan Axpat Gürcüstanın tərkibində




idi. Orada Axpat mədənlərini gürcü çarı II İraklinin işə salması, bunun üçün Türkiyədən yunan peşəkarlarını gətirməsi məlum olan faktdır. Çarın bacısı Annaya vurulmasına gəldikdə, bu barədə elə bir tarixi fakt mövcud deyildir. Bədii ədəbiyyata gəldikdə, Akaki Beliaşvilinin «Besik Qabaşvilinin sərgüzəşti» romanında Besikinin II İraklinin bacısı Anna ilə sevgi macəraları öz əksini tapıb. O dövrü gözəl əks etdirən bu romanda Sayat-Nova barəsində bir kəlmə belə söz açılmır. Yalnız bu barədə məlumatlar əfsanə şəklində, uydurulmuş şəkildə bizə çatdırılmışdır. Bu əfsanə və uydurmalar barədə bir az sonra daha ətraflı söhbət açacağam.

Müəllif daha sonra qeyd edir ki, "1760-cı illərin birinci yarısında Stepanos adlanan Sayat-Nova İranın Gilan əyalətinin Ənzəli şəhərində, sonra Zaqatalanın Kax qəsəbəsinin erməni kilsəsində keşiş olaraq xidmət edib. O, burada çox dəyərli əlyazma salnamələri yazıb (Mesrop Maştots adına Matendaranda qorunub saxlanılır). Ona kimi aşığın erməni və türk şeirlərinin əlyazmalar icmalı- "Dəftəri" tərtib edilmişdi". Həmin səhifənin aşağısında bu dəftərin Eğişe Çarens adına Ermənistan Ədəbiyyat və İncəsənət Muzeyində saxlanıldığı qeyd edilib. Halbuki, indiyədək bu dəftərin Sankt -Peterburqun Asiya muzeyi arxivində saxlanıldığı qeyd edilirdi. Görünür, oradan gətiriblər, belə bir şey əgər mümkündürsə. Nə isə, qeyd etmək lazımdır ki, indiyədək, gürcü və eləcə də erməni alimləri onun həmin vaxtlar Zaqatalanın Qax qəsəbəsində olan Kürmüx məbədində keşiş kimi fəaliyyət göstərməsi barədə yazmayıblar. Bu, yeni uydurmalardan biridir ki, bu da inamla demək olar ki, həmin məbədin erməniləşdirilməsi məqsədəni güdür. Belə bir yanaşma ermənilər üçün yeni deyildir. Azərbaycan mənbələrində oxuyuruq: "Kürmük məbədi- Azərbaycanın Qax rayonu ərazisində vaxtilə mövcud olan Alban məbədinin qalıqları üzərində inşa olunmuş fəaliyyət göstərən gürcü kilsəsidir". Başqa bir yerdə isə: "2006-cı ilin sentyabrında məbədin cənub ərazisində aparılan arxeoloji qazıntılar zamanı məbədin mərhələli şəkildə 4 dəfə müxtəlif əsrlərdə yenidənqurma-bərpa işlərinə məruz qaldığı məlum olub. Bununla da məbədin gürcü və ya ermənilərə deyil, ilkin çağlarda alban kilsəsinə aid olduğu sübuta yetirilmişdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli qərarı ilə təstiq edilmiş siyahıya əsasən "Kürmük" məbədi tarixi və mədəniyyət abidəsi kimi qeydiyyata götürülmüşdür" (Ayna.az. 2011.05.14 sentyabr).

Ön sözünün müəllifi özünün yazısında azərbaycanlı sözünü türk sözü ilə əvəz edib. Elə götürək türk dili olsun, türk dilində bir şeir belə verilməyib və yaxud Sayat-Novanın elə özünün indi azərbaycanlı anlamını verən tatar dilində yazdığını da bir yana qoyaq, kitabda erməni və gürcü dilində qoşquları və onların bəzilərinin rus dilinə tərcümələri verilib. Bununla da yeni bir əfsanəni yaratmaq cəhdləri ortaya çıxır.

"Qafqaz evi" tərəfindən 2005-ci ildə nəşr olunan "Sayat Nova" kitabı barədə, eləcə də biri neçə il bundan əvvəl "Gürcü poeziyası" silsiləsindən Yetim Gürcünün və Sayat -Novanın şeir nümunələrinin ikisinin birlikdə "Ailə kitabxanası" nəşriyyatı tərəfindən nəşr olunduğu kitab barədə bir kəlmə də olsa burada söhbət açılmır. Belə ki, həmin kitabda Yetim Gürcünün əvvəliki kitablarında dərc olunmuş şeirləri tam şəkildə, Sayat-Novanın isə yalnız gürcü dilində yazdığı şeirləri öz əksini tapmışdır.

Onu da qeyd edim ki, "Sayat-Nova" kitabını tərtib edən, üç dildə mətnlərin redaksiyasını həyata keçirən, erməni və azəri dillərində olan şeirlərini gürcü dilinə tərcümə edən Zezva Medulaşvilidir. Onun yazdığına görə, Sayat-Novanın doğum-ölüm tarixi məlum deyil. Müxtəlif tədqiqatçılar nəğməkarın doğum tarixini 1707, 1711, 1712, 1713, 1714, 1717, 1718, 1720, 1722, 1724, 1726-cı ildə göstərir. Elə onun qeyd etdiyinə görə, Sayat-Novanın ölüm tarixi barəsində də tədqiqatçıların fikri fərqlidir. 1795, 1796, 1798, 1800, 1801, 1802-ci illər. Belə ki, onun yazdığına görə, doğum-ölüm gününün dəqiq tarixi bir daha, yenədən tədqiq olunmalıdır. Zezva Medulaşvili həmin dövrün əsas danışıq dili olaraq Tiflis azəri, Tiflis erməni, Tiflis gürcü şivəsini göstərib. Bu kitabda onun gürcücə 34, ermənicə 41 və onun gürcücə tərcüməsi, azərbaycanca 24 və onun gürcücə tərcüməsi, gürcücə-farsca, azəricə-ermənicə iki şeiri verilib.

Mirzə Məmmədoğlu

(Dəvamı gələn sayımızda)

## GƏNCLƏR MƏSULİYYƏTƏ GÖRƏ NİKAHA DAXİL OLMURLAR

Demoqraf Avtandil Sulaberidze məlumat verib ki, Gürcüstanda gənclər məsuliyyətdən çəkinərək, nikaha daxil olmaq istəmirlər.

Əvvəki illə müqayisədə ölkəmizdə 2015-ci ildə nikahın sayı 7,1% azalıb.

"Məsuliyyət hissi yüksəlib. Əgər gənc öz maliyyə vəziyyətinə arxayın deyilsə, ailə qurmaqdan qorxur" – Sulaberidze deyib.

Qadınlara gəlincə, nikaha daxil olmamağın əsas səbəbi təhsil və karyeradır.

"Onlar magistraturanı 24 yaşında bitirirlər, sonra aspiranturada, daha sonra doktoranturada oxuyur və ya xaricə işləməyə gedirlər. Təhsildən sonra qadınlar karyera barədə düşünürlər, mənzil, maşın alırlar. Bu problemlərə batan qadınlar bir də baxırlar ki, 35 yaşları var" – Sulaberidze qeyd edib.

Yaşla bağlı belə alınır ki, istər qadınlar, istər də kişilər gəncliklərində üzünə baxmadıqları adamlarla nikaha girməli olurlar.

Bununla belə əgər əvvəllər qızlar yaxşı ailədən varlı adaxlı axtarırdılarsa, bu gün kişilər, əsasən də gənc olmayanlar belə qadın axtarırlar.

Erkən nikaha Gürcüstanda bu gün də, lakin əsasən milli azlıqlar arasında rast gəlinir.

Təkrar nikaha gəlincə, kişilər əsasən 41, qadınlar isə 38 yaşlarında ikinci dəfə ailə qururlar. Bu sahədə kişilər liderlik edirlər. 2014-cü ildə 300 kişi və cəmi 12-15 qadın ikinci və ya daha çox nikaha girib.

Gürcüstanda bir çox cütlük rəsmi nikaha daxil olmur, lakin onlardan çoxu kilsədə nikahlanırlar. Nəticədə doğulan uşaqların 30%-i məhz bu ailələrdə dünyaya gəlir.

## GÜRCÜ MƏTBƏXİ ƏN DADLI MƏTBƏXLƏR BEŞLİYİNƏ DÜŞDÜ

Amerikanın Thrillist nəşrinin reytinqinə əsasən, Gürcüstan Avropanın ən dadlı milli mətbəxi olan ölkələri sırasına düşüb.

Gürcüstan reytinqdə 48 ölkə arasında İtaliya, Fransa və İspaniyadan sonra dördüncü olub.

"Gürcüstan Avropanı, Yaxın Şərqi və Asiyanı birləşdirən qədim ipək yolunun mərkəzində yerləşdiyindən, bu ölkənin yeməkləri keşniş və qurudulmuş gülünbahar kimi otlar və ədviyyatlardan istifadə etməklə inanılmaz dərəcədə zəngin və nadir olur. Onlardan elə bir kombinasiyada istifadə edilir ki, buna başqa regionlarda rast gəlinmir" – Thrillist yazır.

Thrillist xaçapuri, xəngəl, çaxoxbili və kuçmaçi kimi yeməkləri vurğulayıb. Bundan başqa gürcü süfrəsində pendir, tkemali, göyərti və istiot həmişə bol olur.

Thrillist yemək, içki, səyahət və əyləncə sahəsində ixtisaslaşmış bir nəşrdir.

HAQQIN SÖZÜ-SÖZÜN HAQQI.

# Yeni YOL

15 fevral 2016-ci il
№0017 (17)

yeni_yol@mail.ru | İCTİMAİ QƏZET | “იენი იოლი” საზოგადოებრივი გაზეთი | qəzet 17 iyun 2015-ci ildən nəşr olunur

## TBİLİSİ DÖVLƏT PEŞƏKAR AZƏRBAYCAN DRAM TEATRININ SƏHNƏSİNDƏ NÖVBƏTİ TAMAŞA OYNANILIB

Fevralın 7-də və 14-də paxtaxt Tbilisidə Heydər Əliyev adına Tbilisi Dövlət Peşəkar Azərbaycan Dram Teatrının səhnəsində teatrın rejissoru Turqay Vəlizadə tərəfindən Miroslav Mitroviçin "Gecə yarısı soyğunçuluq" pyesi əsasında hazırlanan tamaşanın premyerası keçirilib. Tamaşanın quruluşçu rejissoru, rəssamı və musiqi tərtibatçısı teatrın rejissoru Turqay Vəlizadə, xoreoqrafı isə Aslan Məmmədovdur. “Gecə yarısı soyğunçuluq” komediyasındakı rolları teatrın aktyorları Aslan Məmmədov, Turqay Vəlizadə, Leyla Qasımova, Marianna Məmmədova, Fazil Bayramov ifa ediblər.




Tamaşanın hər iki nümayişində teatr salonunu tamaşaçılar ağzınacan doldurmuşlar. Tamaşa paxtaxtdan və bölgələrdən gələn tamaşaçıların böyük marağını və rəğbətini qazanıb.

## ARAZ ÖZARA İFASI İLƏ FRANSIZLARI HEYRƏTLƏNDİRDİ



Fransanın TF1 telekanalında yayımlanan “The Voice” (“O səs”) şousunun növbəti buraxılışında səhnəyə azərbaycanlı gənc çıxıb.

Yayılan xəbərlərə görə, “The Voice” şousunun fevralın 6-da yayımlanan buraxılışında səhnə alan Araz Özara adlı azərbaycanlı gənc öz ifası ilə münsiflərin hamısını özünə tərəf döndərə bilib.

Səhnəyə milli musiqi aləti tar ilə çıxan Araz Kris İsaakın “Wicked” kompozisiyasını ifa etməklə münsiflərin və tamaşaçıların rəğbətini qazanıb.

Araz özü barədə bunları söyləyib ki, 25 yaşı var, Bakıdan, Azərbaycandandır, yarım ildir ki, fransız həyat yoldaşı ilə Tuluzada yaşayır

## AMERİKA ALİMLƏRİ SÜNİ ƏT ƏLDƏ EDƏ BİLİBLƏR

ABŞ-da fəaliyyət göstərən “Memphis Meats” adlı şirkətin alimləri süni ət yarada biliblər.

Bu yaxınlarda şirkət süni şəkildə əldə olunmuş ət nümunələrinin təqdimatını keçirib.

Alimlər süni əti inək, donuz, toyuq və digər heyvanlardan alınmış hüceyrələr əsasında yaradıblar. “MemphisMeats” şirkətinin alimləri iddia edirlər ki, süni yaradılmış ət, demək olar ki, təbii ətin dadını verir, lakin təbii ətdən daha keyfiyyətli və təhlükəsizdir, insan orqanizminə ziyan vermir.

Şirkət süni ətin yaxın 5 il ərzində ABŞ-ın bütün ərazisində, o cümlədən gələcəkdə dünyada satışa çıxarılmasını planlaşdırır.



## ZİKA VİRUSUNUN AVROPADA YAYILMA RİSKİ YAZDA VƏ YAYDA ARTACAQ

Zika virusu daşıyıcısı Aedes növündən olan ağcaqanad Avropanın çox ölkəsində mövcuddur. Məhz bu dövlətlər daha çox Zika virusunun yayılma riskinə məruz qala bilər. vropada Zika virusunun yayılma riski yaz-yay dövründə artır. Bu barədə Beynəlxalq Səhiyyə Təşkilatının Avropa regional bürosunun rəhbəri Jujanna Yakob bəyan edib.

“Aedas ağcaqanadının yaşadığı bütün Avropa ölkələri Zika virusunun yayılması riskinə məruz qala bilər. Yazın və yayın gəlişi ilə bu risk artır” – bəyanatda bildirilir.

Zika qızdırması meymunlarda olan kəskin yolxucu xəstəlikdir, bəzən ağcaqanadlar vasitəsilə insana da keçir və xoşxassəli gedişi olan qızdırma kimi xarakterizə olunur. Artıq ABŞ-da Zika qızdırmasının insandan insana keçməsi halı qeydə alınıb. Virus daha çox hamilə qadınlar üçün təhlükəlidir. Belə ki, dölün beynini zədələyərək, mikrosefalya yaradır.

## “ƏLİ VƏ NİNO”NUN HEYKƏLİ DÜNYANIN ƏN ROMANTİK ABİDƏLƏRİ SİYAHISINA DÜŞÜB



Batuminin sahil bulvarında ucaldılmış “Əli və Nino” heykəl kompoziisyası Rusiyanın NQS Turizm portalının versiyasına əsasən dünyanın ən məşhur romantik abidələri onluğuna daxil olub.

Turist portalının reytinq cədvəli fevralın 14-də qeyd edilən sevgililər günü münasibətilə hazırlanıb.

Gürcü heykəltəraşı Tamar Kvesitadzenin əsəri siyahıda altıncı olub.

“Gürcüstanın məşhur kurort şəhərinə gələn hər bir turistin proqramında “Əli və Ninonun öpüşü” heykəltəraşlıq kompozisiyasına baxış mütləqdir. Kompozisiya milliyyətindən asılı olmayaraq, bütün sevənlərin qarşılıqlı cazibə rəmzidir” – NQS Turizm saytında qeyd olunur.

“Əli və Nino” heykəli Qurban Səidin eyniadlı məşhur romanının qəhrəmanları – azərbaycanlı Əlilə gürcü qızı Ninonun məhəbbətini təcəssüm etdirir.

Kompozisiya onunla diqqətəlayiqdir ki, Əli və Ninonun fiqurları hər axşam on dəqiqədən bir vəziyyətlərini dəyişərək, bir-birilə görüşüb birləşənədək yavaş-yavaş bir-birinə doğru hərəkət edirlər. Bundan sonra əks proses başlayır və onların hərəkətləri təkrarlanır.

## SİQARET BİR ÇOX XRONİKİ VƏ SAĞALMAZ XƏSTƏLİKLƏRİN MƏNBƏYİDİR



Gürcüstanda hər il siqaret çəkdiyinə görə 250 min adamda müxtəlif xəstəliklər aşkarlanır. Bununla belə siqaret çəkənlər dayanmırlar, siqaretə külli miqdarda vəsait xərxləyirlər.

Hazırda Gürcüstan əhalisinin 40%-dən çoxu siqaret çəkəndir, bunun da yarıdan çoxu kişilərdir.

“Gürcüstan siqaret istehlakının səviyyəsinə görə Avropada birinci yeri tutur” – Gürcüstan “Tütünə nəzarət alyansı”nın rəhbəri Georgi Baxturadze məlumat verib.

2015-ci ildə BMT Baş Assambleyasında tütündən istifadə etmənin Gürcüstanın inkişafına mane olan faktorlardan biri olduğu səsləndirilib.

Sputnik xəbər saytının verdiyi məlumata görə, ölkəmizdə siqaret çəkənlər hər gün adambaşına 19 ədəd siqaret istehlak edirlər. Siqaret çəkənlər ildə orta hesabla 800 lari tütünə pul xərcləyirlər.

Dünyada 1,3 milyard nəfər siqaret çəkən insan var. Hər il planetimizdə 6 300 000 000 000 ədəd siqaret istehsal olunur və siqaret çəkənlər adambaşına ildə təqribən 1000 ədəd siqaret istehlak edirlər.

Saytın məlumatına görə, siqaret tərkibində 4800 zərərli element barındırır. Hər 5 ölümdən biri bu və ya digər dərəcdədə siqaretlə bağlıdır. Siqaret bir çox xroniki və sağalmaz xəstəliklərin mənbəyidir.

## BAŞSAĞLIĞI

Qardabani rayonundakı Nəzərli ictimai məktəbinin müəllim və şagird kollektivi məktəbin keçmiş müəllimi

**Osman Əhməd oğlu Osmanovun**

vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

Allah rəhmət eləsin!

Qardabani rayonundakı Kosalı ictimai məktəbinin müəllim və şagird kollektivi təqaüdçü müəllim

**Osman Əhməd oğlu Osmanovun**

vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

Allah rəhmət eləsin!

Təsisçi:
“Gürcüstan gənclərinə Yardım və Maarifləndimrə Təşkilatı”

Redaktor:
Afiq Muxtaroğlu
Yayım Direktoru:
Hacı Bəkiroğlu

Ünvan: Qardabani şəh, Kolxoz küç, 4
Tel/ (+995) 595 92 25 70
599 54 12 92
email: yeni_yol@mail.ru

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir.
Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər.
Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır.
Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.